# TƏZAD

Mən onları tələbəlik illərindən tanıyırdım iki bacı, bir ata-anadan doğulmuş, eyni evin damı altında böyümüş, eyni qabdan çörək yemişdilər. Adları Mehinlə Banu olan bu bacılar fərqli adamlar idi. Uşaqlıq illəri bir-birinin kölgəsində keçsə də, yolları həyatın ilk döngəsində ayrılmışdı. Hərəsinin öz həqiqəti, öz doğru bildiyi yol vardı.



*Doğmalarla doğma dildə danışmaq nə çətin olurmuş,*
*Bir simin qırılması ahəngi pozurmuş...*

**Elmira KƏNAN**

Amma bir şey açıq-aydın görünürdü: Mehin iqtidara bağlı idi, Banu isə müxalifətyönümlü.

Banu tələbəlikdən bəri hakimiyyətin tənqidçisi idi. Qorxmadan, çəkinmədən, bəzən gizlincə, bəzən açıq-aşkar müxalif qəzetləri oxuyardı. Siyasi liderlərin şəkillərini otaqlarında asanları rişxəndlə süzər, "Bu, azad düşüncənin zindanında asılmış şəkillərə bənzəyir" deyərdi. Ətrafındakıların çoxu onu anlamaq istəməzdi, bəziləri isə susmaqla qınayardı. Amma Banu fikirindən dönməzdi.

Mehin isə sanki sistemin siması idi. Hakimiyyətə sadiq idi, amma bu, sadecə itaət deyildi - onun ruhu da idarə olunmağa alışmışdı. Evdə də eləydi: bacısını, ata-anasını, hər kəsi öz düşüncəsinə tabe etdirməyə çalışardı.

Zahiri cəhətdən də bir-birilənin əksi idilər. Bənzərsiz gözəl idilər. Mehinin at quyruğu kmi düz saçları vardı, Banunun isə qıvrım. Mehin qarayanız idi, Banu ağbəniz. Biri qısaboylu, o birisi isə ucaboylu idi. Biri dəqiq elmlərin vurğunu idi, digəri isə humanitar sahələrin.

Anaları fağır bir qadın idi. Bir yaş, ya da yaşyarımlıq olanda anasını itirmişdi. Bu zavallı qızcığaz taleyin sərt qollarında ana nəvazişinə həsrət qalmışdı. Ürəyindəki o boşluğu qızlarına sarılaraq, doldurmağa çalışırdı. Amma qızlar böyüdükcə onların arasında yaranan fikir ayrılığı ananı iki daş arasında elə qoyurdu ki, anasızlığını unudurdu. Bir tərəfdə hökmran Mehin, o biri tərəfdə inadkar Banu...

Hələ bu qızlar böyüməmişdi, televizorda anaya aid mahnılar səslənəndə Banu tez qaçıb televizorun səsini artırırdı ki, görsün anasına necə təsir edir. Kənardan anasının necə ağladığını gizlincə izləyirdi. Mehin isə ağır təbiətli idi və bacısını bu hərəkətinə görə danlayardı:

- Başın xarabdır sənin? Görmürsən, na necə ağlayır?! Keçir televizoru.

- Yox ee, bilmək istəyirəm görüm necə ağlayır.

- Dəlisən ee sən.

Ana da sakitcə ya balkona, ya da hamama çəkilib ağlayırdı.

Banu itkinin nə olduğunu kitablarda deyil, hiss edərək, görərək anlamaq isteyirdi.

Bəlkə də anasının yarasına toxunmaqla özündə də bir yara açmaq istəyirdi.

Ana həmişə qızlarına deyirdi ki, o, ana sevgisinin nə olduğunu bilmir, amma isteyir ki, qızlar ona ana sevgisinin nə olduğunu göstərsin. Bəlkə zamanın ona vurduğu ana yarası sağalar.

Di gəl ki, uşaqlar böyüyərböyüməz aralarında sözləri çəp gəlməyə başladı. Özünü hökmlü aparan Mehinin davranışı Banunu qıcıqlandırardı. Ona görə, elə gün olmurdu ki, mübahisə olmasın. Neytral mövqe tuta bilməyən ana mübarizənin ortasında qalmışdı. Mehinin kobud davranacağından çəkinən ana Banuya göz ağardaraq işarə edirdi ki, barı Banu sussun. O, Banuya "Ay Allahın bəlası, kaş səni doğanda qarnım cırılaydı... Kirmişcə dur, görürüsən o yamandır, sən dinmə sus", - deyirdi.

Ailə məclislərində bu iki bacı çalışardı ki, çox ünsiyyətdə olmasınlar, üz-üzə gəlməsinlər. Mübahisəyə girişmək istəmirdilər ki, el-oba arasında deməsinlər iki bacı dalaşır. İctimai-siyasi mövzular hər ikisinin yaralı yeri idi, həm də maraqlı.

Toyda, yasda bacılar "ailə naminə nəzakətlə danışardılar...

Elə ailə də bir dövlət kimidir axı. Onu kim idarə edirsə etsin, uşaqların xoşbəxtliyinə və uğurlu gələcəyinə görə valideynlər məsuliyyət daşıyırdı. Maraqlı bu idi ki, ata Banuya, ana da Mehinə dəstək olurdu.

Demişdik axı, Mehin başını hər zaman dik tutaraq, hökumətlə fəxr edirdi. Daima bu sözləri təkrar edərdi:

- Xalq günahkardır. Oxumaq, işləmək istəmir. Tənbəldir! Kasıb niyə telefon, maşın almaq üçün kredit götürür.

Banu isə dərhal qarşılıq verirdi:

- Xeyr, sən səhv düşünürsən. Ən çox işləyən elə xalqdır! Gecəsi-gündüzü olmayan, axşamadək çalışan, qəpik-quruş alan xalqdır. Yeyib-oturan isə elə ortalıqda gəzənlərdir! Kasıbın da ixtiyarı var ki, yaxşı yaşasın.

Beləcə, mübahisə qızışırdı. Ataları da məsələyə qarışırdı. Yazıq kişi içdən həmişə Banunun haqlı olduğunu bilirdi. Ürəyi dözmürdü ki, qızları belə mübahisə etsin, hər kəsin qanı qaralsın. Hətta zarafatla deyirdi: "Banum, nə yaxşı ki, oğlan doğulmamısan, yoxsa indi həbsxana divarları arasında çürüyərdün". Daha sonra qızını bağrına basardı.

Ata çalışırdı ki, evdə ümumiyyətlə söz-söhbət olmasın. Uşaqlar məktəbdə olanda yoldaşına irad tuturdu ki, uşaqlara düzgün tərbiyə verə bilmir. Ana da qızların üstünə acıqlanardı ki, onların üstündə üzü danlanır və sonra ürəyindən tikan çıxarmaq üçün, kişi eşitməsin deyə pıçıltı ilə deyərdi:

- Məndə günah yoxdur. Siz hamınız o həyasız bibilərinizə oxşamısınız. Onlar da sizin kimi yaman idilər. Fatmanisə də, Tükəzban də, Püstəxanım da... Kənddə hamı onlardan danışırdı. Kökünüz kəsilsin sizin!

Fatmanisə bibi, - deməşkən, bibilər işərisində həqiqətən o, çox yaman arvad idi. Hansı qohum-əqrəbasıgilə gedirdisə, aranı qatıb gəlirdi. O, gedəndən sonra evlərdə söz-söhbət sənginmək bilmirdi. Ata-bala küsürdü, ər-arvad dalaşırdı. Fatmanisə bibi elə davranırdı ki, guya həmişə hamının yaxşılığını düşünür. Sonra barışdırmaq missiyası ilə özünü sülhməramlı qüvvə kimi göstərməyə çalışırdı.

Ananın bacıları, yəni xalalar da elə yaman idi, üstəlik də sözbaz. Onlarla danışanda 3 dəfə düşünüb, 2 dəfə çay içib sonra ürəyindən keçəni deməliydin. Elə danışmalıydın ki, onların könülləri xoş olsun. Yoxsa ömürlük sənə düşmən kəsilərdilər.

Axı bu bacılar nə bibilərə çəkmişdi, nə də xalalara.

Bu qızlar zəmanə deyil də, sistemin uşaqları idi. Mehin sistemi sevərdi, Banu isə...

Amma bir gün sistem onu da əzdi.

O gün Banu qapını açanda bacısının gözləri qıpqırmızı qızarmışdı. Mehinin çöhrəsində bir vaxtlar Banunun dediyi "Bu ölkədə özbaşınalıq baş alıb gedir", - cümləsini oxudu. Banu heç bir söz demədən bacısını içəri dəvət etdi.

- Sən keç içəri, bir çay qoyum.

Mehin çantasını koridorun kandarına qoyaraq, əlindəki islanmaqdan əzilmiş kağız salfeti didişdirməyə başladı.

Az keçmədi ki, Banu məcməyidə iki stəkan çay gətirdi. Elə təzəcə dəmləmişdi.

- Bəlkə aclığın var. Yemək də hazırdır.

- Yox, yemək istəmirəm. Çay içəcəm.

Çay hələ də içilməmişdi.

Yox, çay soyuq olduğuna görə yoxg

Sadecə bəzən çay içmək də xoşbəxtlik kimidir - ürək istəməsə, boğazdan keçməz.

Banu nə soruşdusa, Mehin heç bir suala cavab vermədi.

Gedirəm yatmağa, - deyib yataq otağına keçdi.

Gecəni onlarda qaldı.

Sonra Banu öyrəndi ki, işlədiyi idarəyə təyin olunan yeni nazir köhnə işçiləri işdən çıxarıb. İllərlə müdafiə etdiyi sistem indi Mehinə dərs vermişdi. Onun bütün zəhməti bir gündə silinmişdi.

Nədənsə, iqtidarın yüksək posta təyin etdiyi nazirlərin həmısı şöhrətpərəstlik və tamahkarlıq virusuna yoluxur, köhnə komandanın işçilərinə meydan oxuyaraq onları işdən azad edir, sonrakı fəaliyyətlərində də qeyri-sağlam rəqabət aparaq, öz qohum-əqrəbalarını vəzifəyə gətirir. Beləcə də neçə-neçə Mehinlə Banuların gəncliklərini, həyatlarını oğurlayırlar. Bu oğurluq sonra onlara sinələri dolu medallar qazandırır.

Budur, səhərin günəşinə yenə pəncərələr açıldı.

Banu əsl türksayağı səhər süfrəsi açmışdı: soyulmuş yumurta, qayqanaq, pomidor-xiyar salatı, bal, yağ-pendir, yulaf yarmasından hazırlanmış sıyıq, isti təndir çörəyi, kəkotu qoxuyan ətirli çay. Düşündü ki, səhər süfrəsi bəlkə Mehinin əhvalını qaldıra bilər. Nələrsə müzakirə edərək bir çıxış yolu taparlar. Ən azı günə başlamaq üçün çay sakitləşdirici təsir göstərir.

Mehinə toxtaqlıq verərək çayı uzatdı.

Mehin bir anlıq dayandı, hələ də qəhər içində idi. Əllərinin arxasıyla göz yaşlarını sildi və fincanı əlinə aldı... Bir qurtum almaq istədig Amma yenə içə bilmədi. Yenidən doluxsundu.

Banu ona sarıldı, "Sənin yanındayam" deyərək bir də bacısını bağrına bərk basdı. Doğmalaşmışdılar. Əgər haqsızlığa uğradığını bilə-bilə çayı içə bilmirsənsə, deməli, bu ölkədə xoşbəxtlik olmur.

Bu hakimiyyət iki bacını necə düşmən etmişdi.

Və bu ədalətsizliklə barışa bilməyən vicdan bacıları yenidən doğmalaşdırmışdı.

Amma təzadın içində bir ümid vardı: saxta xoşbəxtliyin ömrü uzun olmur.

Bu bacıların axtardığı xoşbəxtlik bahar kimi yavaş-yavaş gələcək.

Səhərin günəşinə könüllər də çiçək kimi açacaq.

Və o gün də gələcək.